

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 66-67
(7394-7395)

Çərşənbə axşamı, 25 oktyabr 2016-cı il.

Qiyməti 40 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də ATƏT-in Minsk qrupunun həmsədrləri Ceyms Uorliki, İqor Popovu, Pyer Andryönü və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

*AZƏRTAC.*

## Xarici donorlar tərəfindən qrant verilməsində “bir pəncərə” prinsipi tətbiq ediləcək

***Azərbaycan Respublikasının Prezident xarici donorlar tərəfindən respublika ərazisində qrantların verilməsi prosedurunda “bir pəncərə” prinsipinin tətbiqi haqqında fərman imzalayıb.***

Fərmanda bildirilir ki, son illər ərzində Azərbaycanda vətəndaş cəmiyyəti təsisatlarına dövlət dəstəyinin, onların fəaliyyətində şəffaflığın və hesabatlılığın artırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilib. Nəticədə ölkədə qeyri-hökumət təşkilatları güclənib, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən proqramların hazırlanmasında və həyata keçirilməsində onların rolu xeyli artıb. Fərman Azərbaycanda vətəndaş cəmiyyəti təsisatlarının fəaliyyətini dəstəkləmək, xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrantların verilməsi prosedurunun asanlaşdırılmasını, bu sahədə şəffaflığı və ayrılan maliyyə vəsaitlərinin məqsədyönlü istiqamətləndirilməsini təmin etmək məqsədilə imzalanıb.

Fərmana əsasən 2017-ci il yanvarın 1-dən xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrantların verilməsi prosedurunda “bir pəncərə” prinsipi tətbiq ediləcək. Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrantların verilməsi prosedurunda “bir pəncərə” prinsipi üzrə əlaqələndirici dövlət orqanının səlahiyyətlərinin həyata keçirilməsi kommersiya qurumlarına münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə, digər qeyri-kommersiya qurumlarına və fiziki şəxslərə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə həvalə edilib.

## 9 noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür

Bayraq hələ qədimdən dövlətin əsas atributlarından sayılır. Azərbaycanın üçrəngli Dövlət bayrağı həm də müstəqilliyimizi təcəssüm etdirən dövlət rəmzlərindən biridir.

Azərbaycan Respublikasının Dövlət bayrağının tarixi 1918-ci ildən başlayır. Məlum olduğu kimi 1918-ci ilin may ayının 28-də müsəlman şərqində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cumhuriyyəti yaranmışdır. Həmin ilin iyun ayının 24-də Azərbaycan Xalq Cumhuriyyətinin Nazirlər Şurası Dövlət bayrağının təsisi haqqında qərar vermişdir. Həmin dövrdə Azərbaycanın Dövlət bayrağının Osmanlı Türkiyəsinin Dövlət bayrağı ilə bir rəngdə–qırmızı rəngdə olması nəzərdə tutulurdu: 1918-ci ilin sentyabr ayının 15-də Azərbaycan hökuməti Bakı şəhərinə köçdükdən sonra Respublika Nazirlər Şurası Dövlət bayrağı məsələsini yenidən gündəmə gətirdi. Əksər hökumət üzvləri Dövlət bayrağının Osmanlı Türkiyəsinin Dövlət bayrağından fərqlənməsini təklif etdilər. Beləliklə 1918-ci ilin 9 noyabrında Nazirlər Şurası göy, qırmızı və yaşıl rənglərdən ibarət, mərkəzində ağ aypara və səkkizguşəli ulduz həkk olunmuş Dövlət bayrağının təsis olunması barədə qərar verdi. Çox təəssüf ki, həmin dövrdə Bakıda olan işğalçı ingilis ordusunun komandanı müstəqil Azərbaycan Xalq Cumhuriyyətinin Dövlət bayrağının sərbəst şəkildə dövlət idarələrində, şəhərin küçələrində dalğalanmasına imkan vermirdi. Azərbaycanın Dövlət bayrağı ancaq müəyyən günlərdə Azərbaycan Milli Şurasının binası üzərində ucaldıla bilərdi.

1920-ci ilin aprel ayının 28-də bolşevik Rusiyasının müdaxiləsi və daxili çəkişmələr nəticəsində Azərbaycan Xalq Cumhuriyyətinin suquta uğraması üçrəngli bayrağımızın da müvəqqəti olaraq öz statusunu itirməsinə səbəb oldu.

Azərbaycan Xalq Cumhuriyyətinin dövlət rəmzi olan üçrəngli bayrağımız düz 70 il sonra–1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Muxtar Respublikanın Dövlət bayrağı kimi qəbul edildi. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağımızın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsadət qaldırmışdır.

Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı, həyata keçirdiyi daxili və xarici siyasət nəticəsində respublikamızda anarxiyanın, özbaşınalığın qarşısı alınmış, ictimai-siyasi sabitlik təmin edilmiş, ölkənin parçalanmasına yönəlmiş separatçı cəhdlər uğursuzluğa düçar olmuşdur. Üçrəngli bayrağımızın ikinci dəfə dövlət rəmzi kimi təsbit edilməsi də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan, 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasında da öz əksini tapmışdır.

Azərbaycan bir çox nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının tamhüquqlu üzvüdür. Üçrəngli milli bayrağımız Avropanın mərkəzində dalğalanmağa, bizim varlığımızı, gücümüzü bütün dünyaya tanıtmağa başlayıb. Ulu öndərimiz Heydər Əliyev Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi ilə əlaqədar keçirilən təntənəli mərasimdəki çıxışında milli bayrağımızın çox böyük önəm daşıdığını bir daha vurğulamışdır: "Bu dəqiqələrdə biz tarixi anlar yaşayırıq. Az sonra Azərbaycanın bayrağı Avropa Şurası Sarayının önündə dalğalanacaqdır. Bu bayrağın rənglərindən birinin mənası müasirləşmək, yeni avropalaşmaqdır. Xoşbəxtik ki, hamımızın ümumi səyləri ilə bayrağımız bir daha öz həqiqi mənasına qovuşur, öz həqiqi yerini tutur".

**(Ardı 2-ci səhifədə).**